T Ü R K O L O G İ Y A

№ 2 2025

https://doi.org/10.59849/2313-5204.2025.2.125

## ƏDƏBİ İRS
## ЛИТЕРАТУРНОЕ НАСЛЕДИЕ
## LİTERARY HERİTAGE

*KÖNÜL İBRAHİMOVA (Azərbaycan)*[*]

# QABDULLA TUKAYIN BƏDİİ PUBLİSİSTİKA YARADICILIĞININ KAZAN ŞƏHƏRİ DÖVRÜ VƏ YA YETKİN MƏRHƏLƏSİ (1907–1913-cü illər)

**Xülasə**

Qabdulla Tukayın (1886–1913) həm iyirmi yeddi illik qısa ömrünün, həm də cəmi səkkiz il davam edən yaradıcılıq fəaliyyətinin ən məhsuldar altı ili Kazan şəhəri ilə bağlı olmuşdur. O, lirik şeirləri ilə yanaşı, ədəbi-bədii yaradıcılığının tərkib hissəsi olan bədii publisistika əsərlərini əvvəlcə yazıçı Fatih Əmirxanın təşəbbüsü ilə Kazanda tatar dilində çıxan və ən mütərəqqi mətbu orqanlardan biri olan “Əl-islah” (“İslahat”) qəzetində çap etdirmişdir.

Bu qəzet fəaliyyətini dayandırdıqdan sonra yenə Kazanda tatar dilində çap olunan “Yaşen” (“İldırım”) və “Yalt-yolt” (“Şimşək”) adlı satirik, yumoristik və şəkilli jurnallar nəşr edilmişdir. Tukayın özünün təşəbbüsü və katibliyi ilə nəşr olunan bu jurnallarda o, şeirlərini, tərcümələrini, məqalə və bədii publisistik əsərlərini, əsasən də oçerklərini, satirik felyetonlarını, pamfletlərini, parodiyalarını, epiqramlarını və başqa əsərlərini çap etdirmişdir.

Bununla yanaşı, Qabdulla Tukay bədii publisistika əsərlərini Kazandan kənarda nəşr olunan başqa jurnallarda, o cümlədən Uralsk şəhərində yaşadığı dövrdə əməkdaşlıq etdiyi “Fikir” qəzetində də çap etdirmişdir.

Ədibin “Yadımda qalanlar” adlı avtobioqrafik oçerki isə sağlığında – 1909-cu ildə Kazanda “Örnək” (“Ürnək”) mətbəəsində ayrıca kitabca şəklində nəşr olunmuşdur.

Bu məqalədə Qabdulla Tukayın bədii publisistika yaradıcılığının Kazan şəhəri dövrü və ya yaradıcılığının yetkin mərhələsi (1907–1913-ci illər) kimi səciyyələndirilən dövrdə çap etdirdiyi bədii publisistika əsərləri haqqında məlumat verilir.

**Açar sözlər:** *Kazan şəhəri, Г.Тукай, “Əl-islah” (“İslahat”), “Yaşen” (“İldırım”), “Yalt-yolt” (“Şimşək”), oçerk, felyeton, pamflet.*

Qabdulla Tukay yaşadığı dövrün məşhur elm mərkəzlərindən biri olan, tatar mədəniyyətinin və elminin beşiyi sayılan Kazan şəhərinə 1907-ci ilin payızında –

[*] AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. E-mail: konul_ibrahimova_82@mail.ru

oktyabr ayında gəlmiş və ömrünün sonuna qədər burada yaşamışdır. Tez bir zamanda şəhərin ədəbi-mədəni və ictimai-siyasi həyatına daxil olmağı bacarmış və özünü təkcə böyük şair deyil, həm də parlaq nasir, kəskin satiria müəllifi olan jurnalist kimi də göstərə bilmişdir. Uralsk şəhərində yaşayarkən peşəkar və iti qələm sahibi kimi tanınsa da, ömrünün Kazan dövrü onun istedadının çiçəkləmə dövrü, yetkinliyi və şöhrət qazandığı dövr oldu. Fitri istedadı və zəhməti sayəsində burada özünü məşhur şair, nasir və jurnalist kimi təsdiq etməyi bacardı. Heç təsadüfü deyil ki, onun ilk şeirlər toplusu olan "Qabdulla Tukayev şiqirləre" ("Qabdulla Tukayevin şeirləri") adlı kitabı məhz Kazanda işıq üzü görmüşdür.

Tukay Kazana gələndə yetkin jurnalist idi. Kazanda onun bu sahədə fəaliyyət göstərməsi üçün də mədəni mühit vardı. Şəhərdə çoxlu sayda nəşriyyat fəaliyyət göstərirdi, qəzetlər, jurnallar nəşr olunurdu. Burada həmçinin fikir və əqidə cəhətdən Tukaya yaxın olan ziyalılar da vardı. Ona görə də, Kazanda yaşamaq və yaradıcılıqla məşğul olmaq Tukaya çətinlik yaratmadı.

Həmin dövrdə Kazanda "Əl-islah" ("İslahat") adlı həftəlik ictimai-siyasi qəzet də çap olunurdu. Eyni adlı təşkilatın orqanı olan bu qəzetin Kazanda 3 oktyabr 1907-ci ildən 22 iyul 1909-cu ilə qədər cəmi 68 sayı çapdan çıxmışdır. O dövrdə ən mütərəqqi mətbu orqanlardan biri olan qəzetin rəsmi naşiri və redaktoru Vəfa Bəxtiyarov olsa da, həqiqi redaktoru yazıçı Fatih Əmirxan (1886–1926) idi (Татарская периодическая печать ..., 2017:51-52). O, Qabdulla Tukayın yaxın dostu idi. Ona görə də, Qabdulla Tukayı qəzetlə əməkdaşlıq etməyə dəvət etdi. Tukayın özü də Uralskdə yaşayan dostu Qabdulla Kariyevə yazdığı məktubunda Kazan həyatından razı olduğunu bildirərək, bu barədə yazmışdır: "*Mən indi Kazandayam... Dostlar, ziyalılar çoxdur, danışırıq, gülürük, oxuyuruq, həmişə bir-birimizin fikrindəyik. Maraqlıdır. Ancaq Kazana gələndə çox xəstələndim. Axı, havası düşmədi. Könüllü olaraq "Əl-islah"da işləyirəm. Maaşımı başqa yerdən alıram*" ( Габдулла Тукай. Әсәрләр, 2016:198). Tukay bir vaxtlar Qabderəhman Dövlətşinin rəhbərliyi ilə qurulan kitab nəşri və ticarət ilə məşğul olan "Kitap" adlı şirkətdə ekspeditor işləmişdir. Maaşını həmin şirkətdən aldığından, "Əl-islah"ın redaksiyasında könüllü işlədiyini də xüsusi qeyd etmişdir.

Fatih Əmirxan qəzetlə əməkdaşlığa Qabdulla Tukaydan başqa, o dövrün tanınmış şair və yazıçılarından – şair Səqit Rəmiyevi, yazıçılardan Qəlimcan İbrahimovu, Qaliəskər Kamalı, ictimai xadim Yusif Akçuranı və başqa görkəmli ziyalıları da cəlb etmişdi. Qəzetin səhifələrində adları çəkilən və başqa ədiblərin hekayə və şeirləri dərc edilirdi. Qabdulla Tukay qəzetdə şeirləri, tənqidi yazıları və felyetonları ilə çıxış edirdi. Qəzetdə Tukayın 50-dən artıq şeiri ilə yanaşı bir neçə məqaləsi və felyetonları dərc olunmuşdur. Tukay əsərlərini "Q", "T", "Şürəle" və "Feakut" imzaları ilə çap etdirmişdir (Тукай Габдулла. Энциклопедия, 2016:67). Qəzetdə onun "Tənqid – lazımlı şeydir" ("Tənkıyt – kirəkle şəyder", 1907, №3, 17 oktyabr), "Bayram, biz və ruslar" ("Bəyrəm, bez və ruslar", 1908, №13, 1 yanvar), "Çuqun hamamları" ("Korımlı munçalar", 1908, №13, 1 yanvar), "Köhnə mədrəsələr üçün lüğətlər" ("İçke mədrəsələr öçen löqatlər", 1908, №34, 17 iyun və

№35, 25 iyun) adlı məqalələri və "Hazırkı zaman söhbətləri" ("Хәзерге заманча сөйләшүләр", 1908, №3, 9 fevral) adlı felyetonları çap olunmuşdur.

Qabdulla Tukay çoxdan "Molla Nəsrəddin"ə bənzər illüstrasiyalı (şəkilli) satirik jurnal buraxmağın arzusunda idi. Həmin dövrdə xalqın milli yüksəlişi də belə bir jurnalın olmasını labüd etmişdi. Ona görə də bu cür tərtibdə jurnal buraxılışına icazə almaq üçün müraciət etmiş və tezliklə illüstrasiyalı satira və yumor jurnalının nəşr olunacağını, "Əl-islah" qəzetinin oxucularına bildirmişdilər: " *Yaxın vaxtlarda "Əl-islah" idarəsi, təkcə mədrəsə həyatını deyil, tatar həyatının hər tərəfini tənqid edən həftəlik satirik jurnalın nəşrinə icazə alacaq...*"( Көлке журналы («Яшен»), 2021:82).

Nəhayət, 1908-ci ildə yaxın dostları ilə bu arzusunu həyata keçirə bildi. Kazan qubernatoru dəftərxanasından 1 iyul 1908-ci ildə jurnalın çapına icazə verilmişdir. 3 avqustda "Yaşen" ("İldırım") adlı satirik, yumoristik və illüstrasiyalı jurnal işıq üzü görmüşdür. Jurnalın naşiri, redaktoru və rəssamı Qaliəskər Kamal idi. Jurnalın təşkilində Qabdulla Tukay və Fatih Əmirxan yaxından iştirak edirdilər. Qabdulla Tukay həm də jurnalın katibi idi.

Tukay jurnalın nəşrə başlamasını "Yaşen" jurnalı haqqında" ("Yaşen" jurnalı xakında") adlı şeiri ilə alqışlayaraq, yazmışdı:

Yaltırıy milli bolıtlarnıñ arasınnan "Yaşen";
Bəlki, rəxmət yañqırıdır – yaşnəsen ul, yaşnəsen.

Yul tabar zolməttə kalqannar – töşersen şəüləsen;
Taş yörəklər həm yaşen kürkəç ukır "lyaxəülə"sen

(Габдулла Тукай. Әсәрләр, 2011:249).

(*Parlayır milli buludların arasından "Yaşen";*
*Bəlkə də bu şükür yağışıdır – qoy yağsın, yağsın.*

*Yol tapar zülmətdə qalanlar – qoy saçsın şöləsin;*
*Daş ürəklər də ildırım görcək oxuyar "laxəülə"sin*).

Jurnal 1 avqust 1908-ci ildən 24 iyun 1909-cu ilə qədər, tatar dilində, ayda iki dəfə olmaqla çıxmağa başlamışdır. Onun cəmi 10 sayı işıq üzü görmüşdür. Maliyyə çətinliyi səbəbindən jurnal fəaliyyətini dayandırmalı olmuşdur (Татарская периодическая печать ..., 2017:162-163).

Jurnalın az müddət fəaliyyət göstərməsinə baxmayaraq, Tukayın yaradıcılıq fəaliyyəti üçün əhəmiyyətli olmuşdu. Jurnalda əsasən şeirlər və satirik yazılara, xüsusən felyetonlara üstünlük verilməsi Tukayın publisistik yazılarla çıxış etməsinə, xüsusən bədii publisistika əsərlərini çap etdirməsinə imkan yaranmışdı. Jurnalda gedən nəsr və nəzm əsərlərini "Q. Tukaev", "Qömbert", "Qömberrt", "Qömberrrt", "Şürale", "Kırmıska", "Sagit", "Hayatel hayvan"nan köçürücü", "Millətçe", "Tərtə başı", "Min yazmadım", "Möqabbir" imzaları ilə çap etdirmişdir (Көлке журналы («Яшен»), 2021:83).

"Yaşen" jurnalı Tukayın satirik və yumorist nasir kimi yetişməsində çox böyük rol oynamışdı. Onun özü də jurnalın oxucu rəğbətini qazanması üçün əlindən gələni edirdi. Onun fəaliyyəti haqqında Q.Şərəf yazırdı: "*Tukay "Yaşen"i çox sevirdi, onu özününkü hesab edirdi, onun üzərində çox zəhmət çəkdi, hər nömrəsini vaxtında çap etdirməyə can atdı, illüstrasiyalardan narahat idi. Tukay tələsik işə nifrət edir, yeknəsəkliyə qarşı mübarizə aparır, jurnalın bir nömrəsinin o birindən daha yaxşı olmasına çalışırdı*" (Современники о Тукае, 1960:101).

Ümumiyyətlə, Tukay "Yaşen" də altmışdan çox yazısını çap etdirmişdir. Onlardan 22 şeir və 25 nəsr əsəri – publisistik məqalələri idi ((Татарская периодическая печать ..., 2017:163).

Tukayın "Yaşen" jurnalında bədii publisistikasından bir neçə felyetonu, o cümlədən "Hekayə" ("Xikaya", 1908, №2, 10 sentyabr), "Həyat nədir?" ( "Topmış nərsə ul", 1908, №2, 10 sentyabr), "Kimlər nə deyir?" ("Kemnərneñ ni disəñ kotları çıqa?", 1908, №3, 30 sentyabr), "Lüğətlə falçılıq" ("Slovardan fal açu", 1908, №5, 17 dekabr), "Müasir deyimlər" ("Xəzerqe zamança söyləşülər", 1908, №5, 17 dekabr), "Qəzetlərdən" ("Qəzitələrdən", 1908, №5, 17 dekabr), "Son deyim" (...1909, №6, 31 yanvar), "Son görüşlər" ("Axır küreşülər",1909, №6, 31 yanvar), "Quçkov" ("Quçkov", 1909, №6, 31 yanvar) felyetonları dərc olunmuşdur.

Tukayın bədii publisistika yaradıcılığının istiqamətlərindən biri də pamfletdir.

Pamflet – aktuallığı və kiməsə qarşı yönəlmiş kəskin pisləməsi ilə seçilən satirik və ya ittiham xarakteri daşıyan, müəyyən ictimai-siyasi hadisələri və ya konkret insanları kəskin tənqid və istehza edən, həcmcə böyük olmayan, publisistik janrda yazılmış əsərdir. O, emosionallığı, ifadəliliyi ilə seçilir və ictimai rəyə birbaşa təsir etmək məqsədi daşıyır (https://www.google.com/search?q=памфлет&sca_esv). Qabdulla Tukay bədii publisistikanın bir növü olan pamfletin şeirlə və nəsrlə parlaq nümunələrini yaradaraq, "Yaşen" jurnalında dərc etdirmişdir. Nəsrlə yazılmış "Nu-Nu-Nu" ("Nu-Nu-Nu", 1909, №6, 31 yanvar) və şeirlə yazılmış "Abdülhəmid" ("Qabdelxəmid", 1909, №8, 21 may) adlı pamfletləri "Yaşen" jurnalında dərc olunmuş ən yaxşı nümunələrdəndir.

"Yaşen" jurnalı öz fəaliyyətini dayandırdıqdan sonra onun varisi kimi "Yalt-yolt" ("Şimşək") adlı satirk, yumoristik və şəkilli (illüstrasiyalı) juranl nəşrə başlamışdır. Ayda iki dəfə 1910-ci il mayın 15-dən 1918-ci ilin uyun ayına kimi Kazanda tatar dilində nəşr olunan bu jurnalın redaktoru Əhmət Urmançiyev, məsul katibi isə Qabdulla Tukay olmuşdur. Əslində jurnalın son nəşrinə qədər redaktorluğu Q.Tukay etmişdir. Jurnalın cəmi 123 nömrəsi çapdan çıxmışdır. "Yaşen" jurnalında olduğu kimi "Yalt-yolt" jurnalında da ən çox yazıları çap olunan Q.Tukay olmuşdur. Şairin burada 50-ə yaxın şeiri işıq üzü görmüşdür (Татарская периодическая печать ..., 2017:154).

Qabdulla Tukay Kazanda yaşayarkən publisistik, o cümlədən bədii publisistik əsərlərini əsasən Kazanda nəşr olunan və özünün də əməkdaşı olduğu

"Əl-islah" ("İslahat"), "Yaşen" ("İldırım") və "Yalt-yolt" ("Şimşək") jurnallarında çap etdirmişdir. Lakin 1910-1913-cü illərdə yazdığı satirik, nəsr, publisitik, o cümlədən bədii publisistika (felyetonlar, pamfletlər, epiqramlar, parodiyalar) əsərlərinin əksəriyyətini "Yalt-yolt"da çap etdirmişdir ((Татарская периодическая печать ..., 2017:154). Jurnalda onun "Həştərxan müzakirələri" ("Əsterxan mözakərəlәre", 1911, №20, 1 iyun), "Buzov boyda böyük fəlsəfə" ("Bozau kadərlə zur fəlsəfə", 1910, №11, 15 avqust), "Müstəsna istedadlar" ("Qazəp talantlar", 1910, №1, 15 mart), "Sevgi" atəşi" ("Qıyşık" utı", 1910, №8, 1 iyul), "Ruhanilər sevindilər" ("Dinçelər kuanıştılar", 1912, №43, 20 sentyabr), "İdarədən cavablar" ("İdarədən cavaplar", 1911, №23, 1 iyul), "Heyvan insanlar" ("Keşe –xayvannar", 1910, №5, 15 may), "Mətbuatımızın "Fəsahət nümunələri" ("Matbutatımıznıň "Fəsaxət nəmünələre", 1913, №53, 15 mart), "Yalt-yolt" idarəsindən suallar" ("Yalt-yolt" idarəsendən söallər", 1911, №28, 12 oktyabr), "Adlarımız haqqında" ("İsemnəremez xakında", 1911, №23, 4 iyul), "Üç baş" ("Öç baş", 1911, №26, 15 avqust), "Keçən ilin hesabatı" ("Bıltırnın xisabı", 1912, №31, 1 yanvar), "İndi meyvə və göyərti vaxtıdır" ("Xözer cilək-cimeş vakıtı", 1912, №42, 5 avqust), "İdarədən cavablar" ("Tiqendən-şundan", 1912, №48, 22 dekabr), "1912-ci ilin hesabatında unudulmuşdur" ("1912 elnın onıtılqandan kalqan qına xisabı", 1913, №49, 10 yanvar), "Təəccübləndilər" ("Qacəpləndelər", 1913, №53, 15 mart) adlı felyetonları çap olunmuşdur.

Tukay Kazanda yaşayarkən burada nəşr olunan qəzet və jurnallarla yanaşı, Kazandan kənarda nəşr olunan qəzet və jurnallarda da bədii publisistika əsərlərini çap etdirmişdir. Onlardan biri vaxtilə ən fəal müəlliflərindən olduğu Uralskda çıxan "Fikir" qəzeti idi. O, Kazanda yaşayarkən də həmin qəzetlə əməkdaşlığını davam etdirirdi. Qəzetdə onun "Başqasına qazdığı çuxura özü düşdü" ("Keşeqə kazıqan çokırqa üze töşü", 1907, №8, 22 fevral) adlı felyetonu, sonuncu nömrəsində isə "Dumanıň halı" ("Dumanın xəle", 1907, №18, 13 may) adlı felyetonu işıq üzü görmüşdür.

Tukay böyük sənətkar idi. Onun şairliyi kimi nasirliyi də çox mükəmməl idi. Xüsusilə bədii publisistika sahəsində. Felyetonlarında olduğu kimi, parodiya yaradıcılığında da novator sənətkar idi. Onun nəzm və nəsrlə yazdığı parodiyaları tatar ədəbiyyatında bu sahədə ilk nümunələrdəndir. "Yalt-yolt" jurnalında hər iki janrdan olan parodiyası çap olunmuşdur. Nəsrlə yazdığı "Giriş nitqi" ("Kereşü xotbəse") adlı felyeton-parodiyası jurnalın 1910-cu il (№5, 15 may), şeirlə yazdığı adsız parodiyası isə jurnalın 1912-ci il (№ 37, 15 aprel) sayında işıq üzü görmüşdür.

Eyni zamanda onun "Yaşen" jurnalında "Millətçi" ("Millətçe", 1910, №13, 15 sentyabr), "Yalt-yolt"da isə "Millətə fayda əvəzinə zərər" ("Millətkə fayda urınına zarar", 1910, №13, 15 sentyabr) felyeton xarakterli resenziyaları da işıq üzü görübdür.

Qabdulla Tukay bədii publisistikanın ən geniş yayılmış oçerk janrında da yazan böyük naisr kimi tanınmışdır. Öz həyatından bəhs edən "Yadımda qalanlar"

(“İsemde kalqannar”) adlı avtobioqrafik oçerki ilk dəfə tatar dilində 1909-cu ildə Kazanda ayrıca kitab kimi nəşr edilmişdir.

Qabdulla Tukay bir neçə səyahətnamənin də müəllifidir. Elmi ədəbiyyatda səyahətnamələri “*epik janrda yaradılıb müəyyən bir səyahəti əks etdirən bədii əsər*” adlandırırlar (Ədəbiyyatşünaslıq terminləri lüğəti,1957:81). Nəsr əsəri olaraq gündəlik şəklində yazıldığından səyahətnamələri səyyahların gündəlikləri də adlandırırlar. Tatar ədəbiyyatında səyahətnamələri yol oçerkləri kimi təsbit edirlər. Qabdulla Tukay vaxtilə səyahət etmiş və gündəliklərini (yol oçerklərini) yazıb, çap etdirmişdir.

Ədib “Kiçik səyahət” (“Кечкенə сəяхəт”) adlı oçerkini ilk dəfə 1911-ci ildə (№ 24, 15 iyun), “Soba ustasının hekayəsi” (“Miç başı kıyssası”) adlı oçerkini 1912-ci ildə (№ 32, 21 yanvar), “Kazana qayıdış” (“Kazanqa kaytış”) adlı yol oçerkini də 1912-ci ildə (№ 35, 11 mart) çap etdirmişdir. Qabdulla Tukayın hər üç yol oçerki “Yalt-yolt” jurnalında “Şürəle” imzası ilə işıq üzü görmüşdür.

Qabdulla Tukay görkəmli tatar şairi kimi dünyada məşhurdur. Araşdırmamız göstərdi ki, o həm də məşhur nasirdir. Çoxlu sayda məqalələri, publisistik əsərləri, xüsusilə bədii publisistikası onun həm də zəngin nəsr yaradıcılığına malik böyük nasir olduğunu təsdiq edir. Tədqiqat zamanı müəyyən edildi ki, Kazan şəhəri onun bədii publisistika yaradıcılığı üçün münbit ədəbi mühit olmuşdur. Ədibin özünün də əsas müəlliflərindən, yaradıcılarından olduğu Kazan şəhərində nəşr olunmuş “Əl-islah” (“İslahat”) qəzeti, elmi katibi, əslində isə redaktoru olduğu “Yaşen” və “Yalt-yolt” jurnalları onun bədii publisistika müəllifi kimi yetişməsində və məşhurlaşmasında mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Көлке журналы («Яшен») (2021) // Фәнни Татарстан, № 1(29).
2. Татарская периодическая печать: научно-энциклопедическое издание (2017). Составитель и научный редактор Р.А.Айнутдинов, З.З.Гилазев. Казань: Изд-во Академии наук РТ.
3. Габдулла Тукай. Энциклопедия (2016). Баш мөхәррир: З.З.Рәмиев. Редакцион совет: Р.И. Вәлиев, А.М.Сибәгатуллин, М.Х.Салахов, К.М.Миңнулин, З.З.Рәмиев. Казан: Г.Ибраһимов исемендәге Тел, әдәбият һәм сәнгать институты.
4. Габдулла Тукай. Әсәрләр (2011). Академик басма. Алты томда. 1 том. Шигъри әсәрләр (1904–1908). Төз., текст., иск. һәм аңл. әзерл. Р.М.Кадыйров, З.Г.Мөхәммәтшин; кереш сүз авт. Н. Ш. Хисамов, З. З. Рәмиев. Казан: Татарстан китап нәшрияты.
5. Габдулла Тукай. Әсәрләр (2015). Академик басма. Алты томда. 4 том. Проза, публицистика (1907-1913). Төз., текст., иск. һәм аңл. әзерл: Зөфәр Мөхәммәтшин. Фәнни мөхәррире: Зөфәр Рәмиев. Казан: Татарстан китап нәшрияты.

6. Габдулла Тукай. Әсәрләр (2016). Академик басма. 6 томда. 5 том: мәсәлләр, балалар өчен хикәяләр, автобиографик повесть, юлъязмалар, хатлар (1903-1913). Төз., текст., иск. һәм аңл. әзерл.: Г. Хөснетдинова, Г.Ханнанова. Казан: Татарстан китап нәшрияты.
7. Ədəbiyyatşünaslıq terminləri lüğəti (1957). Tərtib edəni: Əziz Mirəhmədov. Bakı, Azərnəşr
8. https://www.google.com/search?q=памфлет&sca_esv
9. Современники о Тукае (1960). Сборник воспоминаний, статей и литературных произведений. Казань.

*Конул Ибрагиова (Азербайджан)*

## Художественно-публицистское творчество Габдуллы Тукая Казанского периода или зрелый этап (1907-1913 гг.)

## Резюме

С Казанью связаны шесть самых плодотворных лет короткой, двадцатисемилетней жизни Габдуллы Тукая (1886–1913) и продолжавшаяся всего восемь лет творческая деятельность. Наряду с лирическими стихами он публиковал и произведения художественной публицистики, которые составляли неотъемлемую часть его литературно-художественного творчества, в газете «Аль-Ислах» («Реформа»), которая издавалась на татарском языке по инициативе писателя Фатиха Амирхана в Казани и являлась одним из самых прогрессивных печатных органов.

После прекращения деятельности этой газеты вновь стали издаваться сатирические, юмористические и иллюстрированные журналы «Яшен» («Молния») и «Ялт-йолт» («Сверкание»), которые издавались на татарском языке в Казани. В этих журналах, издававшихся по инициативе Тукая и под его секретарским руководством, публиковались его стихи, переводы, статьи и художественно-публицистические произведения, главным образом очерки, сатирические фельетоны, памфлеты, пародии, эпиграммы и другие произведения.

Кроме того, Габдулла Тукай публиковал свои литературно-публицистические произведения и в других журналах, издававшихся за пределами Казани, в том числе в газете «Фикир» («Мысль»), с которой он сотрудничал, проживая в городе Уральске.

Автобиографический очерк автора «Что я помню» был издан отдельной брошюрой ещё при его жизни в 1909 году, в типографии «Орнек» («Образец») в Казани.

В статье даются сведения о произведениях литературной публицистики, опубликованных Габдуллой Тукаем в период, характеризуемый как казанский период его литературной публицистики или зрелый этап его творчества (1907–1913).

**Ключевые слова:** *город Казань, Г. Тукай, «Аль-ислах» («Реформа»), «Яшен» («Молния»), «Ялт-йолт» («Сверкание»), очерк, фельетон, памфлет.*

*Konul Ibrahimova* (*Azerbaijan*)

# The Period of Kazan City or the Mature Stage of Gabdulla Tukay's Artistic Publicistic Creativity (1907-1913)

## Abstract

The most productive six years of Gabdulla Tukay's (1886–1913) short life of twenty-seven years and his creative activity, which lasted only eight years, were associated with the Kazan city. He published his literary-publicistic works, which were an integral part of his literary and artistic creativity along with his lyrical poems in the newspaper "Al-Islah" ("Reform"), which was firstly published at the initiative of the writer Fatih Amirkhan in the Tatar language in Kazan and was one of the most progressive printed organs.

After this newspaper ceased to operate, the satirical, humorous, and illustrated magazines called "Yashen" ("Lightning") and "Yalt-yolt" ("The Lightning") publishing in the Tatar language in Kazan were again published. He published his poems, translations, articles and artistic journalistic works, mainly essays, satirical feuilletons, pamphlets, parodies, epigrams and other works in these magazines, which was published on Tukay's own initiative and under his secretaryship.

In addition, Gabdulla Tukay also published his literary publicistic works in other magazines published outside Kazan, including the newspaper "Fikir" ("The Thought"), with which he collaborated while living in the city of Uralsk.

The author's autobiographical essay entitled as "What I Remember" was published as a separate booklet during his lifetime - in 1909 - by the "Örnek" ("Ürnək") printing house in Kazan.

This article provides information about the works of literary journalism published by Gabdulla Tukay during the period characterized as the Kazan period of his literary journalism or the mature stage of his publicistic creativity (1907–1913).

**Keywords:** *Kazan city, G.Tukay, "Al-islah" ("Reform"), "Yashen" ("Lightning"), "Yalt-yolt" ("The Lightning"), essay, pamphlets, feuilletons, pamphlet.*